# Münasibətlərdə yeni mərhələ

## İmzalanmış sənədlər qarşılıqlı əməkdaşlığı daha da genişləndirəcək

**"Azərbaycanın genişmiqyaslı beynəlxalq siyasətində prioritet istiqamətlərdən birini ərəb dövlətləri ilə əlaqələr təşkil edir. Prezident İlham Əliyevin Misirə səfəri çərçivəsində aparılan müzakirələr, imzalanan sənədlər münasibətlərin daha da genişlənəcəyini söyləməyə əsas verir. Onu da deyim ki, Azərbaycanın ərəb dövlətləri ilə əlaqələrində Misirlə münasibətləri xüsusi əhəmiyyət kəsb edir".**



Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, əməkdaşlığın qədim tarixi kökləri var. Hələ sovet dönəmində Azərbaycanla Misir arasında mehriban dostluq əlaqələri olub. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Misir 1991-ci il dekabrın 26-da ölkəmizin müstəqilliyini tanıyıb və 1993-cü ildə qarşılıqlı diplomatik əlaqələrin yaradılması haqqında protokola əsasən, Misirin Bakıda, 1994-cü ilin yanvarında isə Azərbaycanın Qahirədə səfirlikləri açılıb. Ümummilli Lider Heydər Əliyev 1994-cü ildə BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olarkən Misir Prezidenti ilə görüşüb. "Prezidentlərin bu görüşündə Azərbaycan-Misir münasibətlərinin yeni perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində çox mühüm məsələlər müzakirə edilib. Azərbaycanın müstəqil dövlət kimi yürütdüyü xarici siyasət kursunda mühüm faktor olan islam ölkələri sırasında Misir başlıca yerlərdən birini tutur. Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Misir ölkəmizin ərazi bütövlüyünü həmişə dəstəkləyib və üzv olduğu beynəlxalq təşkilatlarda ədalətli mövqeyini daim müdafiə edib", - deyə deputat bildirib.

K.Bayramov qeyd edib ki, islam həmrəyliyi prinsipini daim rəhbər tutan Azərbaycan bu xüsusda ərəb dövlətləri ilə həm ikitərəfli, həm də İslam Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsində maraqlı olub. Ölkəmiz də öz növbəsində ərəb dünyasının haqq işini hər zaman dəstəkləyib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanıb. Ölkəmiz bu liqada müşahidəçi statusuna malikdir.

Deputat vurğulayıb ki, dövlət başçısının Misirə səfəri həm də Azərbaycanın ərəb dünyası ilə əlaqələrinin yüksək səviyyədə olduğunu göstərir: "Səfər çərçivəsində dövlət başçısı ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. İyunun 8-də Qahirədə Prezident İlham Əliyev və Misir Prezidenti Əbdülfəttah əs-Sisi təkbətək, geniş tərkibdə keçirilən görüşlərdən, Azərbaycan-Misir sənədlərinin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarında iki ölkənin əlaqələrinin yeni istiqamətlərini də açıqlayıblar".

Deputat diqqətə çatdırıb ki, Misirlə Azərbaycan arasında ticarət dövriyyəsinin həcminin artırılmasını müsbət hal kimi dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb ki, ancaq mütləq rəqəmlər hələ bizi qane etmir və imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar bu istiqamətdə daha uğurlu nəticələrə çatmaqda böyük rol oynayacaq. Şübhəsiz, Azərbaycan ərazisindən keçən həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizləri nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaradır.

Prezident İlham Əliyev çıxışının sonunda noyabr ayında Bakıda keçiriləcək COP29 çərçivəsində də iki ölkə arasında müzakirələrin aparılacağına ümidvar olduğunu qeyd edib. "Prezident Əbdülfəttah əs-Sisi çıxışında Prezident İlham Əliyevi vəzifəsinə yenidən seçilməsi, həmçinin Bakının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi edəcəyi münasibətilə təbrik edib. Prezidentlər qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər, o cümlədən inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanlarını müzakirə ediblər. Həmçinin iki ölkə arasında birgə komissiyanın fəaliyyətinin və növbəti iclasının təşkilinin önəmi qeyd edilib. Tezliklə komissiyanın növbəti iclasının keçirilməsi qərara alınıb", - deyə müsahibimiz qeyd edib.

Azərbaycanla Misir arasında müxtəlif sferaları əhatə edən 7 sənədin imzalandığını xatırladan deputat bildirib ki, əldə edilmiş razılaşmalar ticarət dövriyyəsinin daha da artırılmasına istiqamətlənib. İlk növbədə energetika, bərpaolunan enerji növlərinin istehsalı, neft sənayesi, əczaçılıq, alüminium sənayesi və digər sahələrdə qarşılıqlı əməkdaşlıq mümkün olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 11 iyun, №122.- S.5.